# Türkmənçay müqaviləsi Azərbaycan xalqı üçün ağır nəticələr doğurdu

**Azərbaycan tarixində dərin iz qoymuş, xalqımızın taleyini dəyişmiş hadisələrdən biri 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay müqaviləsidir. Çar Rusiyası ilə Qacarlar dövləti arasında bağlanan bu müqavilə Azərbaycanın parçalanmasına, ermənilərin torpaqlarımıza köçürülməsinə və regionun geosiyasi xəritəsinin dəyişməsinə səbəb oldu. XVIII əsrin sonlarından etibarən Rusiya imperiyası Cənubi Qafqazı işğal etməyə və burada möhkəmlənməyə çalışırdı. Azərbaycan xanlıqları bu dövrdə müstəqil və ya yarımmüstəqil vəziyyətdə olsa da, regionun böyük dövlətlərinin - Rusiya, Osmanlı və Qacarlar arasında geosiyasi mübarizə meydanına çevrilmişdi. XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazdakı ekspansiya siyasəti gücləndi. 1804-1813-cü illərdə baş verən Birinci Rusiya-Qacar müharibəsi Gülüstan müqaviləsi ilə yekunlaşdı və Azərbaycanın şimal torpaqları Rusiya imperiyasının nəzarətinə keçdi.**




1826-cı ildə başlanan İkinci Rusiya-Qacar müharibəsi 1828-ci ildə Rusiya ordusunun Təbrizi işğal etməsi ilə nəticələndi. Qacarlar dövləti ağır məğlubiyyətə uğradı və sülh imzalamağa məcbur oldu. 1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində imzalanan müqavilə Azərbaycan xalqı üçün ağır nəticələr doğurdu.



*1828-ci ildə ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağ və İrəvan xanlıqlarına köçürülməsi (rəssam Vladimir Maşkov)*

Bu sənədlə Azərbaycanın ərazi bütövlüyü kobud şəkildə pozuldu, xalqımız ikiyə bölündü. Müqavilənin ikinci maddəsi tarixdə "Şimali və Cənubi Azərbaycan" ifadələrinin meydana gəlməsinə səbəb oldu. Üçüncü, dördüncü və beşinci maddələrdə isə Azərbaycanın qədim torpaqlarının bölüşdürülməsi və sərhəd xəttinin çəkilməsi nəzərdə tutulurdu. Lakin bu faciənin ən dəhşətli nəticələrindən biri on beşinci maddədə öz əksini tapdı. Məhz bu bəndə əsasən, ermənilər Qacarlar dövlətinin ərazisindən zorla köçürülərək Azərbaycanın Qarabağ, İrəvan, Borçalı və digər bölgələrinə köçürüldü. Bu, tarixi Azərbaycan torpaqlarında gələcək etnik qarşıdurmaların əsasını qoydu və erməni separatizmini formalaşdırdı. Azərbaycanın tarixi ərazilərinin parçalanması onun coğrafi sərhədlərinin süni şəkildə kiçilməsinə də səbəb oldu. İşğalçı imperiyalar tarixi torpaqlarımızı qanunsuz şəkildə öz aralarında bölüşdürərək beynəlxalq hüququ açıq şəkildə pozdular.

Sözügedən müqavilə 16 maddədən ibarət idi. 1-ci maddədə tərəflər arasında "bundan sonra əbədi sülh, dostluq və tam razılıq" olacağı bildirilirdi; 2-ci maddə Gülüstan müqaviləsi üzrə qarşılıqlı öhdəliklərin başa çatdığını və onun Türkmənçay müqaviləsilə əvəz olunduğunu təsdiq edirdi; 3-cü maddə ilə Qacarlar dövləti, İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya güzəştə getdiyini etiraf edirdi; 4-cü maddə sərhədləri müəyyənləşdirirdi: "Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütüm adaların... Rusiya imperiyasına məxsus olduğu tanındı. Müqaviləyə görə, Rusiyaya iyirmi milyon gümüş manat təzminat verilməli idi (6-cı maddə). Gülüstan müqaviləsində olduğu kimi yenə də Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilərdi (8-cı maddə). 12-15-ci maddələr də ermənilərin Azərbaycan xanlıqlarının ərazilərinə köçürülməsi, onlara tanınan imtiyazları, əsirlərin qaytarılması və digər məsələlər qeyd edilmişdi.

Türkmənçay müqaviləsinin imzalanması çox sayda erməni ailəsinin Qarabağ və İrəvan xanlıqlarına köçməsinə səbəb oldu. 1804-1813 və 1826-1828-ci illərdə və sonralar ermənilərin kütləvi şəkildə Cənubi Azərbaycandan Cənubi Qafqaza, xüsusilə Qarabağa köçürülməsi onların sayını ildən-ilə artırdı. Xüsusilə, 1826-1828-ci illər arasındakı müharibə dövründə Azərbaycanın cənub ərazilərindən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Türkmənçay müqaviləsinə əsasən, ermənilərin Cənubi Azərbaycandan Rusiyaya manevsiz şəkildə köçməsinə icazə verilirdi. 1828-1830-cu illər ərzində Cənubi Azərbaycandan 40 mindən çox erməni və 84 min Türkiyə ermənisi Cənubi Qafqaza köçürüldü və onlar Gəncə, Qarabağ və İrəvan xanlıqlarının ən münbit torpaqlarında yerləşdirildilər. Onlara 200 min desyatindən çox torpaq ayrıldı. Türkmənçay müqaviləsi Rusiyanın Qafqazdakı mövqeyini gücləndirdi və qonşu ölkələrdəki siyasi-iqtisadi təsirini artırdı. Beləliklə Şimali Azərbaycan ərazisi tamamilə Rusiyanın idarəsinə keçdi.

Azərbaycan 1918-ci ildə müstəqil dövlətini qurmaq üçün tarixi bir fürsət əldə etmişdi. Bu, xüsusilə 1917-ci il Rusiyada baş verən oktyabr inqilabının və çar Rusiyasının dağılmasının nəticəsi idi. 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan edildi. Bununla xalq öz müqəddəratını həll etmək haqqı qazandı, tarixi arzusu gerçəkləşdi. Lakin Azərbaycanın müstəqilliyi çox qısa müddət sürdü. Cümhuriyyətin qurulmasından cəmi 23 ay sonra, 1920-ci ilin aprel ayında Sovet Rusiyası Azərbaycanın müstəqilliyinə son qoydu. Sovet İttifaqının Azərbaycanın ərazisini işğalı ilə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bu işğal Azərbaycan xalqının öz müstəqilliyi uğrunda apardığı mübarizənin qarşısını aldı və Azərbaycan Sovetlər Birliyinin bir hissəsi oldu. Sovet dövründə xalqımız hakimiyyətin repressiyalarından, iqtisadi çətinliklərdən və sosial problemlərdən əziyyət çəkdi.

Azərbaycanın müstəqilliyinin bərpası üçün uzun və mürəkkəb bir yol keçildi. 1980-ci illərin sonlarına doğru Sovet İttifaqının zəifləməsi və dünyada gedən dəyişikliklər nəticəsində Azərbaycan xalqının müstəqilliyini bərpa etmək üçün ümidləri artırdı. 1991-ci ildə Azərbaycan 70 illik müstəqillik həsrətinə son qoydu. Müstəqilliyin bərpası ilə yanaşı, Azərbaycan üçün böyük çətinliklər də başladı. Qarabağ münaqişəsi, ölkənin siyasi sabitliyi, iqtisadi çətinliklər və xarici təzyiqlər müstəqilliyin qorunmasını çətinləşdirdi. Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin liderliyi ilə ölkənin güclənməsi və müstəqilliyinin qorunması istiqamətində mühüm addımlar atıldı.

Tariximizin ən önəmli hadisələrindən biri, 44 günlük Vətən müharibəsidir. 2020-ci ildə baş verən müharibə Azərbaycanın işğal altındakı torpaqlarını azad edilməsi ilə nəticələndi. Daha sonra 2023-cü il 19-20 sentyabrında baş tutan antiterror tədbirləri nəticəsində Xankəndi və ətraf ərazilərdə erməni separatizminin süquta uğradıldı. Beləliklə, çətin və qətiyyətli mübarizə sayəsində bu gün Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi.

**Musa BAĞIRLI,**
**"Respublika".**